

## TAHİRƏ MƏĞRUR

### XATİRƏ

Eşqimin xatirə məngənəsində
Sevgim yetim qalıb, göz yaşı tökür.
Nakam məhəbbətim qəm oxlarıyla,
Ömür sarayımdan dərd daşı sökür.

Hicran yollarında yolunu azan,
Kədər həmdəmimdir, əlimdən tutur.
Ömrümə ayrılıq, intizar yazan,
Həsrət kəmərimdir belimdən tutur.

Köksümdə uyumaz dərdli qəlbimə
Köz yaşım təsəlli laylası çalır.
Sevgilim uysa da mahcamallara,
Qəlbimdə eşqimin qalası qalır.

Yenə ləşkar çəkir kədər üstümə,
Vüsal sevdasını izləmə, könül.
Eşqim özü durdu, özü qəsdimə,
Yardan yaralısan, gizləmə, könül.

Sevda tora saldı naşı könlümü,
Səpdi saçlarıma çox erkən dəni.
Qovmuşam qəlbimdən yalançı kimi,
Məğrurun eşqini inkar edəni.

### GÖZLƏRİN

Sevdalı könlümün qəmli çağında,
Tuş gəldim oxuna qara gözlərin.
İlqarı unudub, əhdi danandan,
Qəlbimi edibdi para gözlərin.

Gözlərim yol çəkir hər səhər-axşam,
Ömürlük vüsala həsrət qalmışam.
Zülmət gecələrdə sönməyən şamam,
Etmədi dərdimə çara gözlərin.

Daha ötüb-keçib sevilmək çağı,
Sönüb qəlbimdəki eşqin çırağı,
Qara saçlarımın çoxalıb ağı,
Məni gətiribdi zara gözlərin.

Eşqi çaş taleyim məndən küsübdü,
Əyilməz yolumu mərdlik kəsibdi,
Ürəyim çırpınmır, qəlbim susubdu,
Məndən üz döndərib hara gözlərin?

Məni aldatmadı dünya sərvəti,
Vəfa, sədaqəti görmədim qəti,
Canımı tərk etdi gənclik taqəti,
Vurdu Tahirəyə yara gözlərin.

### AĞLAMA

Sətir-sətir fikirlərim səpələndi
çilik-çilik arzularımın zəlil ayaqlarına.
Bir öpüşün həsrətindən cadar olmuş
Ana əlinin hənirini gözləyən dodaqlarına
Axan Xarı bülbülün göz yaşları dondu.
Geridə ayağına dolaşan hicran cığırları
Gəlişini gözlədiyi Xəyal Doğru Gərçək
Geri dönəcəyinə Umud bağlamadı!
Ağladı acı-acı, için-için!!!

### SON MƏKTUB!

Bu son məktubun oldu,
getdin geri dönmədin,
günümü
göy əsgiyə
düyün vurub getdin,
elə bildin, soldu Günəşim
yasa batdı şeirlərim,

qara geydi misralarım,
saraldı-soldu qafiyələrim.
al-qırmızı geyimlərimi
payladım məscidlərə.
boynu bükük sətirlərim,
yasa batdı şeirlərim.
yox dəyişmədi heç nə
Günəşim də var, Ayım da
dərdimə yanan,
qayğıma qalan da var.
gedən sən oldun
sən özün
qəmlə soldun!
Yenə göylərdədi xəyalım,
yenə sevinirəm,
sabahlar açılanda,
dan yerində vətən sevgim
çırtlayanda,
demə, əzəldən
sən son məktubsanmış
demə,
oduna tək yanan
mənəmmiş!
Sən təksən, tənhasan
yetim qalan quzu kimi
Nakam qalan arzu kimi!

## *KİMDİR VƏFASIZ*

Bəxtimi gəzib
İl-il gözlədim.
Birdən qarşıma çıxdın
Sevindim Dəlilər kimi
Sevindim o gün
Yaxdım əlimə,
Telimə həna...
Fəqət, fəqət
İtirdim səni
Və çatdı
sevincim sona
Ulduz ağladı,
Dedi bayatı:
Hənalı əlim
Qaldı hənasız.

Titrək dodaqlar,
Allı yanaqlar,
Xəzan yarpaqlar,
Dərdli kürəklər,
Qəmli ürəklər
Yandı halıma
Dedi bayatı:
Hənalı əlim
Qaldı hənasız.
Meşə də, çöl də,
Zümrüdü göl də,
Dərə də, dağ da,
Barlı budaq da,
Göz yaşı töküb
Dedi bayatı:
Hənalı əlim
Qaldı hənasız.
Günəş də batdı,
Qaş da qaraldı,
Quşlar da yatdı
Çökdü qaranlıq
Şəhərə, kəndə.
Hənalı əllərim
Qaldı hənasız.
Bitdi nəğmələr,
susdu bülbüllər,
Büründü yasa,
Bağçada güllər,
Yolub saçını
Salxım söyüdlər
Dedi bayatı:
Hənalı əllərim
Qaldı hənasız.
İndi siz deyin
Kimdir vəfasız?

## *XATİRİNƏ DÜŞƏCƏK*

Həyalı bir qız kimi
Məzlum baxışlarımı
Gözlərindən çəkəcəm,
Sənə "əlvida" deyib
Gözlərində əksimi,
Baxışımla əkəcəm.
Ölən son umud kimi,
Dolan bir bulud kimi
Bir gün səssiz-səmirsiz,
Gurlamadan, yağmadan
Səndən küsüb gedəcəm.
Bahar amallarımla,
Payız xəyallarımla
Taleyimə bənzəyən
Əlimdə tək bənövşə
Şirin röyalarımda
Sizə qonaq gələcəm.
Lap özündən xəbərsiz
Titrək barmaqlarımla
Saçlarına, telinə
Cəsarətsiz əlimlə
Gizli tumar çəkəcəm,
Xəlvət sığal çəkəcəm.
Toxunacam əlinə,
Bir utancaq qız kimi
Xəlvət öpüb üzündən,
Kirpiyindən, gözündən
Yenə çıxıb gedəcəm.
...İllər ötüb keçəcək
Məhəbbət bulağından
Neçəsi su içəcək.
İlk görüş bir an kimi
Xatirinə düşəcək.
Məni sızladan görüş,
Məni ağladan görüş,
Məni ağrıdan görüş
Səni dəlib keçəcək!
Gətirdiyim bənövşə
Mən səndən küsdüyümə
O da səndən küsəcək!

## *GÖY QURŞAĞI*

Hamı azadlıq sevir,
hamı azadlıq axtarır
bu yer üzündə.
Rəngbərəngdir azadlıq
İnsanların gözündə.

Ah zavallı insan,
zavallı insan!
Rəngbərəng əsgilərə
Diz çöküb öpdün
Azadlıq yerinə.

Rəngbərəng əsgilər asdın
Məhlə-məhlə bölünmüş
Dünyanın
Çəpər dirəklərinə
Ah, zavallı insan...
Ah azadlıq acları!

Rəngbərəng əsgilər -
Azadlıq kəfəni.
Çəpər dirəklər -
Azadlıq asılmış dar ağacları...

Ah, zavallı dünya!
Hamı azadlıq axtarır.
Hamı azadlıq axtarır, bilirəm,
Hamı azadlıq sevir, bilirəm.
Amma mən göyqurşağını sevirəm..